# Naxçıvanın ilk və tək qazi qadını: "77 könüllü Vətən oğlunun tək bacısı mən idim"

**1990-cı ildə baş verən, tariximizin qəhrəmanlıq səhifələrindən sayılan Sədərək döyüşlərindən 35 il ötür. Həmin illərdə səngərdə döyüşən igid oğullarla yanaşı, onlarla çiyin-çiyinə mübarizə aparan, yaralananlara köməyini əsirgəməyən bir tibbi işçisinin də xidmətləri əvəzolunmazdır. Həmin tibbi işçisi qəhrəman şəfqət bacısı, hazırda Naxçıvan şəhərində yaşayan Nəzifə Qaybaliyevadır. O, həmin vaxt Şərur xəstəxanasında tibb bacısı işləyirdi. Nəzifə xanım döyüşlərin başlanması xəbərini alan kimi, 3 körpə uşağını evdə qoyaraq birbaşa Sədərəyə yollanıb.**




AZƏRTAC-ın əməkdaşı muxtar respublikanın ilk və tək qazi qadın Nəzifə Qaybaliyeva ilə söhbət edib, Sədərək döyüşləri barədə xatirələrini öyrənməyə çalışıb.

Ömrünün ahıl çağlarını yaşayan Nəzifə xanım ötən əsrin 90-cı illərinə aid foto-albomu qarşısına qoyub, bizi döyüş yoldaşları ilə bir-bir tanış edir. "Baxın, Məhərrəm Seyidovdur, polis kapitanı, Naxçıvanın ilk şəhidi, Azərbaycanın ilk Milli qəhrəmanlarından biridir. Abbasəlidir, özüm çıxardım döyüş meydanından onu" - deyir.

Həmin günlərdə yaşananları yada salan Nəzifə xanım deyir: "Yanvarın 18-də Şərur qərargahına gələn xəbər hamını həyəcanlandırdı. Avtomat və beşaçılanlarla silahlanmış bir qrup erməni dəmiryolu, Koroğlu bulağı və şərab zavodu istiqamətindən Sədərəyə hücuma keçmişdi. 10 saat davam edən ölüm-dirim mübarizəsində müdafiəçilərin bir amalı var idi: Sədərək qorunmalıdır. Ermənilər Sədərəyə ancaq bizim meyitimizin üzərindən keçib gedə bilərlər. 10-15 polis işçisi və döyüş təcrübəsi çox az olan könüllünün ov silahı ilə müasir silahlara sahib yüzlərlə hərbçinin hücumunu dəf etməsi möcüzəyə bənzəyirdi. Səngərdə bir igid şəhid olurdusa, beş igid onun silahını götürüb, Vətəni müdafiə etməyə tələsirdi. 77 könüllü Vətən oğlunun tək bacısı mən idim".

Nəzifə xanımın sözlərinə görə, 1990-cı ilin yanvarın 19-u səhərə yaxın atəş səsləri azalmağa başlasa da, aradan heç 4 saat keçməmiş Sədərəyə yenidən və daha şiddətli hücum oldu. Sədərək kəndi və Şərur rayon mərkəzi bu dəfə raket, top və digər ağır silahlardan atəşə tutuldu: "Gecəyarıya kimi susmadılar. Yaralılar neytral zonada qalmışdı. Gecəyarını keçmişdi. Düşmənin susmayan silahları yaralıları götürməyimizə imkan vermirdi. Qarın üzərində sürünə-sürünə birtəhər özümüzü yaralılara yetirdik. Şərur Rayon Mərkəzi Xəstəxanasına çatdırmağa çalışdığımız yaralılardan kimisi elə yoldaca şəhadətə yüksəldi, kimisi isə əməliyyata götürüldü. Dörd il beləcə mənfur düşmənlə döyüşdük, gün oldu ac qaldı döyüşçülər, gün oldu yaralı vəziyyətdə döyüşdülər, amma düşmənə aman vermədilər. Ulu Öndər Heydər Əliyevin "Qeyrət qalası" adlandırdığı Sədərək igid oğulların canı bahasına qorundu. Həmin illərdə Ümummilli Liderlə dəfələrlə görüşdük. Onun yanımızda olması səngərdəkilərə güc verdi. Şiddətli döyüşlərdə, soyuq günlərdə belə heç kim səngəri tərk etmədi. İndi keçmiş günləri xatırlayanda yaralanıb səngərdən ayrı durmaq məcburiyyətində qaldığım günlər üçün təəssüf hissi keçirirəm. 1992-ci ilin mayında - Sədərəyin düşmən mərmilərinin səsindən yenidən lərzəyə gəldiyi bir yaz səhərində mən də ağır yaralandım. Döyüş meydanından ayrılanda yaralanmağımdan daha çox oradakı qardaşlarıma əlim çatmayacaq deyə məyus olmuşdum".

İndi həmin günlərdən bizi 35 illik zaman ayırır. Bədənində hələ də qanlı-qadalı dövrün yaralarını daşıyan qürurlu Nəzifə xanım 17 dəfə əməliyyat olunmasına baxmayaraq, sağlamlığına tam qovuşa bilməyib. Deyir ki, o qəlpələrdən hələ də bədənində qalanı var: "Ancaq qürur duyuram ki, vətənim azaddır. Getdim, Şuşanı gördüm, Sədərəkdən Şuşaya gedən yolu xatırladıqca qürurlandım. Ruhunuz şad olsun igidlər, qardaşlarım, oğullarım".

Bəli, bu gün Nəzifə Qaybaliyeva kimi qadınların, Vətəni ana bilən qızların, oğulların torpağa qarışan qanı hesabına vətənimiz bütövdür, azaddır, xalqımız qalibdir. Vətənini öz canından əziz bilən vətənpərvər insanların, bədənində düşmən mərmisinin qəlpəsini ömrünün sonuna kimi daşısa da, mübarizliyini itirməyən döyüşçü qadınların Vətən eşqi ilə çırpınan ürəyinin sayəsində alınmış açıq, başımız ucadır.

Azərbaycan.- 2025.- 26 yanvar (№ 17).- S.9.